Xalq qəzeti.- 2022.- 21 dekabr.- S. 9

# Fikrət Əmirovun ekran həyatı

**Görkəmli bəstəkar, tanınmış ictimai xadim, SSRİ və Azərbaycan Respublikasının Xalq artisti Fikrət Əmirovun həyat və yaradıcılığına həsr edilmiş "Fikrət Əmirov" bədii-sənədli filmi onun ömür və sənət yoluna sevgi dolu bir nəzər kimi diqqətəlayiqdir. Filmin təqdimatı maraqlı çıxışlarla yadda qalıb.**



Mədəniyyət naziri Anar Kərimov Fikrət Əmirovun 100 illik yubileyi münasibətilə il ərzində dahi bəstəkara həsr olunmuş çoxsaylı tədbirlərin keçirildiyini, silsilə konsertlərin təşkil olunduğunu diqqətə çatdırıb. Onun şah əsəri olan "Min bir gecə" baletinin dünyanın müxtəlif ölkələrində nümayiş olunduğunu deyib:

– Ölkəmizdə yubiley gecələri keçirilib, bəstəkarlar müsabiqəsi təşkil olunub, dahi musiqiçinin əsərlərindən ibarət albom da nəşr edilib. Oktyabr ayında Parisdə – UNESCO-nun baş qərargahında konserti təşkil olunub. Noyabr ayında isə Fikrət Əmirova həsr olunmuş festival çərçivəsində Bakıda, Gəncədə və bir çox regionlarımızda silsilə tədbirlər keçirilib. Uzun illərdən sonra onun Azərbaycan musiqi tarixinə bəxş etdiyi "Sevil" operası Gəncə filarmoniyasında yenidən səhnəyə qoyulub.

Türkiyə Respublikasının mədəniyyət və turizm nazirinin müavini Əhməd Misbah Dəmircan Fikrət Əmirovun 100 illik yubileyinin Bursa şəhərində də təşkil olunduğunu vurğulayıb. Bu tədbirin hər kəsi təsirləndirdiyindən söz açıb. Dahi bəstəkar haqqında olan məlumatların məhz film vasitəsilə türk dünyası gənclərinə çatdırılmasının önəmli olduğunu bildirib.

Filmin rejissoru Vaqif Mustafayev, Fikrət Əmirovun oğlu Cəmil Əmirov Mədəniyyət Nazirliyinə, filmin çəkilişində əməyi keçən hər kəsə öz minnətdarlıqlarını ifadə ediblər.

Çıxışlardan sonra premyeranı maraqla gözləyən tamaşaçılar və tədbir iştirakçıları filmi izləyərək bütün yaradıcı heyəti ayaqüstə alqışlayıblar. Film bir daha sübut edib ki, Fikrət Əmirov musiqi yaradıcılığı sahəsində bənzəri olmayan bir şəxsiyyətdir.

**Fidan HÜQUQQIZI**